# Zəngilana qayıdış reallaşır

***“Bu gün, bax, bu gözəl Zəngilan torpağında həyat qururuq”. – Mayın 27-də teleekrandan möhtərəm Prezidentimiz İlham Əliyevin Zəngilan rayonunun Ağalı kəndində ictimaiyyət nümayəndələri ilə görüşdə çıxış edərkən söylədiyi bu sözləri eşidincə xəyalım yenidən o doğma yerlərə qanadlandı. Mənə ötən ilin aprel və oktyabr aylarında Zəngilana səfər etmək və orada dövlət başçısını Ağalıda qarşılayıb onunla kəndi gəzmək, səmimi ünsiyyətdə olmaq, şəkil çəkdirmək və quruculuq işlərini öz gözlərimlə görmək xoşbəxtliyi nəsib olub.***



Mən cənab Prezident qarşısında çıxış etmişdim, ona “Böyük Qayıdış”ın reallaşdırılması səylərinə görə həmkəndlilərim adından təşəkkürümü bildirmişdim. Açılışı olan Zəfər abidəsinin təməlinə betonu birlikdə tökmüşdük və həmin proses icra olunan zaman səmaya sülh göyərçinləri buraxılmışdı. Bu, artıq dünyaya böyük bir mesaj idi: Biz həmişə sülh tərəfdarı olmuşuq.

Yurd yerinə ilk səfərdən sonra yazdığım “Dünən Zəngilana getmişdim, ata” adlı şeirimdə özəl təəssüratlarımı qələmə almışdım. Atam Nurəddin kişi işğaldan əvvəl doğma kəndimizdə inşaat işləri ilə məşğul olub, 30-a qədər ev tikib. İndi həmin evlərdən heç bir əsər-əlamət qalmayıb, erməni vandalları daşı-daş üstə qoymayıblar. Ancaq “ağıllı kənd” pilot layihəsinin sayəsində Ağalı kəndində yüzdən artıq evin inşası nəzərdə tutulub. Kəndlərarası və kənddaxili yollar çəkilir. Bu müjdəni poetik dillə atama çatdıranda onun necə kövrəldiyini unuda bilmirəm.

Bir il-bir ay öncə cənab İlham Əliyev Zəngilanda Beynəlxalq Hava Limanının və Ağalı kəndində birinci “Ağıllı kənd” pilot layihəsinin təməlini qoymuşdu. İndi isə aeroportda və digər obyektlərdə aparılan işlərin gedişi ilə maraqlandı, İşğal və Zəfər muzeyləri kompleksinin təməlini qoydu, Zəngilan şəhərinin Baş planı haqqında məlumat aldı. Əlbəttə, bütün bunlar coğrafi mövqeyi və təbii imkanları Zəngilanı beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevirmək üçün çox əlverişli olan rayonumuzun sürətlə dirçəldildiyini göstərir, Azərbaycanın öz problemlərini özünün həll etmək iqtidarında olması, regionda möhkəm sülh yaradılması amalını dünyaya ünvanlayır. Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın “Ağıllı kənd” layihəsinin birinci mərhələsi üzrə açılış mərasimini etmələri isə səfərin ən unudulmaz anlarından biri və sözün əsl mənasında tarixi hadisə oldu.

Müstəqillik Günü ərəfəsində Qarabağa səfəri zamanı Zəngilana, Şuşaya, digər yerlərə həyatın qayıtdığını vurğulayan dövlətimizin başçısı deyib: “İndi yol boyunca gələn hər bir adam dəmir yolunu görür, avtomobil yolunu görür. Özü də altı və dörd zolaqlı avtomobil yolu. Zəngilanda hava limanı tikilir, bu il istifadəyə veriləcək. Artıq böyük aqropark salınıb, ilk məhsul bu il götürüləcək”.

Layihəyə əsasən, Zəngilan şəhəri Zəngəzur nəqliyyat dəhlizi ilə sıx əlaqələri olan strateji əhəmiyyətli yaşayış məntəqəsi kimi inkişaf etdiriləcək. Araz vadisinin yaxınlığında, həm Zəngəzur nəqliyyat dəhlizindən, həm də Zəngilan Beynəlxalq Hava Limanından cəmi 10 kilometr məsafədə yeni şəhər yaradılacaq və əhəmiyyətli nəqliyyat şəbəkəsini müasir infrastrukturu ilə tamamlayacaq. Baş planda Zəngilanın logistika, turizm və ticarət mərkəzi, bərpaolunan enerji məkanı kimi inkişaf etdirilməsi də nəzərdə tutulur. Layihənin konseptual əsasını “rahat yaşayış”, “yaşıl və təmiz”, “mütərəqqi innovasiyalar” kimi şəhər yanaşmaları təşkil edir. Gələcəyin şəhərinin mənzərəli landşaftı, çayətrafı ictimai məkanları sayəsində rahat həyat şəraiti ilə seçilməsi hədəflənib.

Şəhərin yerləşdiyi Oxçuçayın sahilində geniş parkın, həmçinin dağüstü parkın və daxili yaşıl dəhlizlərin salınması təmiz ekoloji mühitin formalaşmasına və əhalinin, həmçinin qonaqların gözəlliklərdən zövq almasına imkan yaradacaq. “Ağıllı şəhər”də müasir texnologiyalardan və bərpaolunan enerji mənbələrindən geniş istifadə ediləcək, Zəngilan region səviyyəsində nümunəvi şəhərə çevriləcək.

...Bu barədə düşündükcə sonsuz fərəh hissi keçirirəm. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın lentə aldığı, möhtərəm Prezidentimizin Oxçuçayın sahilində bir kötüyün üstündə oturaraq bir anlıq xəyala daldığı videokadrlar gözlərim önündən çəkilmir. Şırıltı ilə axan çay sanki zamanın gedişatını və bunun Azərbaycanın xeyrinə olduğunu göstərirdi. Hamımızın fəxri olan cənab İlham Əliyevin burada azca dincini aldıqdan sonra xalqımızın mənafeyi naminə fəaliyyətini inamla davam etdirəcəyi, sülh və əmin-amanlığımız üçün yorulmaz səylər göstərəcəyi ilə bağlı duyğular qəlbimi riqqətə gətirir.

Yeri gəlmişkən, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəsmi instaqram səhifəsində bizim Ağalı kəndindəki yeni çörək sexindən etdiyi paylaşım da eyni xoş duyğular yaradıb. Mehriban xanımın şəklin altına yazdığı bu fikirlər hər bir Zəngilan sakininin ürəyindən xəbər verir: “Ağalı kənd sakinləri üçün isti təndir çörəyi. Allah hər evə, hər ocağa bol ruzi-bərəkət nəsib etsin!”

Bəli, otuz ilə yaxın müddətdə həsrətindən ürəyimizin göynədiyi o müqəddəs torpaqların işğaldan azad olunması bizim üçün çox böyük xoşbəxtlikdir. Yurd yerlərimizə yeni həyat qayıdır. Biz qayıdırıq. Həm də başımızı çinar kimi uca tutub vüqarla qayıdırıq. Xan çinarın vətəni sayılan Zəngilana artıq ilk sakinlərin köçü başlanır. Aparılan bərpa-quruculuq işlərinin sürətindən və cənab Prezidentin azad edilmiş ərazilərə müntəzəm səfərlərindən – nəzərə alsaq ki, bu səfərlər hər dəfə yeni bir layihənin, obyektin, müəssisənin əsasını qoymaqla nəticələnir, artıq anlayırdıq ki, arzusunda və intizarında olduğumuz “Böyük Qayıdış” konsepsiyası inamla gerçəkləşir.

May ayının 27-si Ağalı kənd sakinlərinin çoxdan həsrətində olduğu həmin gün idi. Cənab İlham Əliyevin qeyd etdiyi kimi, “Böyük Qayıdış” adlandırdığımız prosesə artıq start verdik. Ölkə başçısının Birinci vitse-prezidentlə birlikdə ilk olaraq salınmış meyvə bağları ilə maraqlanması, kənd sakinlərinin əmək fəaliyyətinə cəlb olunması istiqamətində aidiyyəti şəxslərə verdiyi suallar, orada yaşayacaq əhali üçün lazım olan xidmət sektorlarının işinin keyfiyyəti, tibb müəssisəsi, təhsil ocağı, hətta ərzaq dükanından çörək sexinə qədər bütün xidmətlərlə dərindən tanış olması bura köçəcək hər bir sakinə ayrı-ayrılıqda verilən dəyərdir, həyat şəraitinin maksimum rahatlığı və gözəlliyinin təmin olunması istiqamətində atılmış addımların davamıdır. Daha sonra kəndə ilk köçəcək bir qrup Ağalı sakini ilə görüşən ölkə başçısı onları həm “Böyük Qayıdış”, həm də “28 May – Müstəqillik Günü” münasibətilə təbrik etdi. Bildirdi ki, bu gün burada olmağımız, Ağalı kəndinin açılışında iştirak etməyimiz məhz müstəqilliyimizin möhkəmlənməsinə bağlıdır. Nə iyirminci əsrin əvvəllərində, nə də sonlarında müstəqilliyimiz möhkəm olmamışdır. Ona görə xalqımız böyük faciələrlə üzləşmişdir. Həm Şərqi Zəngəzur, həm Qarabağ işğala məruz qaldı, torpaqları o vaxtkı hakimiyyət qoruya bilmədi. Ancaq bu gün müstəqilliyimiz möhkəmdir və bunun nəticəsində biz ikinci Qarabağ müharibəsində qələbə qazandıq. Bunun nəticəsində bu gün biz buradayıq.

Kənd sakinləri ilə səmimi söhbət edən ölkə başçısının onların fikirlərini dinləməsi, təkliflərini qəbul etməsi, bu günə qədər imtiyazlar tətbiq etdiyi o şəxslərin bundan sonra da ən gözəl şəraitdə yaşamasını təmin etməsi, Qarabağı heç vaxt görməyən, ancaq onun uğrunda ölümə gedən igidləri, üç minə yaxın şəhidimizin əziz xatirəsini hər dəfə yad etməsi bir liderin xalqına, millətinə verdiyi yüksək dəyərdir.

Mənfur düşmənin işğalçılıq siyasəti nəticəsində dağıdılmış kəndlərimizin ən müasir texnologiyalara əsaslanan quruculuq konsepsiyası üzrə bərpası misli



görünməmiş hadisədir. Göz önündə sabahın “Ağıllı kənd”ində yaradılan təsərrüfatların kooperativ idarəetmə sistemi, müasir texnologiyalı tarla, bağ və fermalar, yaşıl ormanlar, bol sulu kəhrizlər canlanır. “Ağıllı” təsərrüfatlar kəndlərdə meyvə, tərəvəz, ət və süd məhsulları istehsalını artırmağa, emal prosesini müasir tələblərə uyğun qurmağa imkan verəcək. Bu kəndlərdə müasir məktəb, bağça, poliklinika və elektron idarəetmə mərkəzləri inşa olunacaq, turizm obyektləri formalaşdırılacaq. Bütün yaşayış evləri, sosial obyektlər, inzibati və ictimai iaşə binaları, kənd təsərrüfatı məhsullarının emalı və istehsalı prosesi alternativ enerji mənbələri ilə təmin ediləcək.

Prezidentin ötən il Bəsitçay Dövlət Qoruğunun yenidən fəaliyyəti barədə imzaladığı fərman da bizi çox sevindirir. Ərazilərin bərpası keçmiş məcburi köçkünlərə qayğıdırsa, bu da ana təbiətə olan diqqətin bariz nümunəsidir.

Görülən və görünən genişmiqyaslı işlər, eyni zamanda, cənab Prezidentin “Biz siyasi cəhətdən tam müstəqilik, heç bir ölkə bizim iradəmizə təsir edə bilməz” fikri bir daha əminlik yaradır ki, biz böyük inkişaf yolundayıq, tezliklə bu yol bizi vaxtilə tərk etməyə məcbur olduğumuz yerlərə – hərəni öz yurd-yuvasına aparacaq və Azərbaycanın daha gözəl günlərinə birlikdə şahidlik edəcəyik.

Nəhayət, onu da deyim ki, dövlətimiz tərəfindən indiyə kimi bizə hər cür qayğı və diqqət göstərildiyi, müəyyən imtiyazlar verildiyi kimi, bundan sonra da Zəngilan dirçəldiləcək, orada müxtəlif iş yerləri yaradılacaq. Bu, insan amilinə üstünlük verilməsinin göstəricisidir.

***Elvin ƏLİZADƏ,***
***Azərbaycan Yazıçılar Birliyinin üzvü, Prezident təqaüdçüsü***